# UNUTMA!

## Müstəqil Azərbaycanın 1991-1993-cü illərdə işğal olunmuş bölgələri

| Sıra | Rayonların adı | Sahəsi | Kənd və digər yaşayış məntəqələrinin sayı | İşğal zamanı əhalinin sayı | İşğal olunduğu tarix | Şəhidlərin sayı | Milli Qəhrəmanların sayı |
|---|---|---|---|---|---|---|---|
| 1 | Xankəndi | 302 kv.km | 25 (25) | 18 min nəfər | 1991 | 102 nəfər | —— |
| 2 | Xocavənd | 1458 kv.km | 78 (78) | 10 min nəfər | 18.02.1992 | 145 nəfər | —— |
| 3 | Xocalı | 926 kv.km | 65 (65) | 12 min nəfər | 26.02.1992 | 3200 (613) | 10 nəfər |
| 4 | Şuşa | 289 kv.km | 30 (30) | 25 min nəfər | 08.05.1992 | 250 nəfər | 3 nəfər |
| 5 | Laçın | 1835 kv.km | 126 (126) | 60 min nəfər | 18.05.1992 | 262 nəfər | 5 nəfər |
| 6 | Kəlbəcər | 1936 kv.km | 124 (124) | 68 min nəfər | 02.04.1993 | 200 nəfər | 2 nəfər |
| 7 | Ağdərə | 1705 kv.km | 58 (58) | 49 min nəfər | 17.06.1993 | 145 nəfər | —— |
| 8 | Ağdam | 1094 kv.km | 121 (80) | 150 min nəfər | 23.07.1993 | 5000 nəfər | 15 nəfər |
| 9 | Cəbrayıl | 1050 kv.km | 90 (89) | 59 min nəfər | 23.08.1993 | 381 nəfər | 6 nəfər |
| 10 | Füzuli | 1392 kv.km | 75 (51) | 100 min nəfər | 23.08.1993 | 1000 nəfər | 8 nəfər |
| 11 | Qubadlı | 802 kv.km | 95 (95) | 30 min nəfər | 31.08.1993 | 200 nəfər | 10 nəfər |
| 12 | Zəngilan | 707 kv.km | 83 (83) | 35 min nəfər | 30.10.1993 | 200 nəfər | 3 nəfər |
| | Cəmi: | 13490 kv.km | 970 | 616 min nəfər | —— | 10085 nəfər | 62 nəfər |

Qeyd: *Mötərizədə göstərilmiş rəqəmlər ermənilər tərəfindən işğal olunmuş kəndlərin sayını əks etdirir.*

## NÜMUNƏVİ XİDMƏT

### İDMANÇI HƏRBİ QULLUQÇULARIMIZLA FƏXR EDİRİK!



***Ölkəmizdə idmanın inkişafına göstərilən diqqət və qayğı xüsusilə son illərdə daha geniş vüsət alıb. Daxili Qoşunların sıralarında xidmət edən idmançı hərbi qulluqçularımızın sayı da durmadan artmaqdadır. Sevindirici haldır ki, onlar istər beynəlxalq, istərsə də yerli yarışlarda hər zaman ölkəmizin və Daxili Qoşunların adını yüksəklərə qaldırmağı bacarırlar. Belə hərbi qulluqçularımızdan biri də 25032 saylı hərbi hissənin komendant taqımının komandiri vəzifəsində xidmət edən leytenant Nadir Şərifovdur.***

O, 1991-ci il avqustun 25-də Balakən rayonunda anadan olub. Orta məktəbi bitirdikdən sonra, 2009-2011-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib.

2011-ci ilin iyun ayından Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə 67987 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində başlayıb. 2012-2014-cü illərdə Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbində təhsil alıb və hazırda 25032 saylı hərbi hissədə xidmətini davam etdirir.

Uşaqlıqdan hərbiyə marağı olan Nadir, eyni zamanda, idmanın müxtəlif növləri-sərbəst güləş, sambo, cü-do ilə məşğul olub. Hərbi qulluqçumuzun qazandığı nailiyyətlər də Daxili Qoşunların Komandanlığı tərəfindən idmanın inkişafı üçün yaradılan hərtərəfli şəraitin nəticəsidir.

Hələ 7 yaşında ikən idmanın sərbəst güləş növü ilə məşğul olmağa başlayan hərbi qulluqçumuz cəmi 2 ildən sonra - 2000-ci ildə yeniyetmələr arasında 32 kq çəki dərəcəsində kürsünün birinci pilləsinə yüksələrək, respublika çempionu olub. O, 2001-2002-ci illərdə də uğurunu təkrarlayaraq, yenə də respublika çempionatında 1-ci yeri tutmağı bacarıb. 2004-cü ildə isə Əli Ansuskinin şərəfinə keçirilən turnirdə 3-cü yeri tutub. 2006-cı ildə ölkəmizdə keçirilən sərbəst güləş üzrə yarışda 1-ci yeri tutmaqla yanaşı, "ən texnikalı güləşçi" tituluna da layiq görülüb.

Lakin leytenant N.Şərifovun uğurları bununla da kifayətlənmir. 2011-ci ildə Daxili Qoşunların sərbəst güləş üzrə çempionatında 2-ci, 2012-ci ildə isə 1-ci yeri tutub. Elə həmin ildə daxili işlər orqanları arasında keçirilən yarışda 65 kq çəki dərəcəsində birinciliyi əldən verməyib. 2015-ci ildə idmanın başqa bir növü-cü-do üzrə keçirilən yarışda da kürsünün ən yüksək pilləsində qərarlaşıb.

İdmançı hərbi qulluqçumuza xidmətində və növbəti yarışlarda uğurlar arzulayırıq.

**leytenant X.Tağıyeva**



***Gizir Afşin Əliyev 1993-cü il martın 13-də Şəmkir rayonunda dünyaya göz açıb. Orta məktəbi müvəffəqiyyətlə bitirdikdən sonra 2011-2012-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olub.***

Hazırda Daxili Qoşunların 12318 saylı hərbi hissəsinin xüsusi vasitələrin tətbiqi bölməsində xidmətini davam etdirir. O, hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur.

Hərbi xidmətin məsuliyyətini, çətinliyini dərindən dərk edən gizir A.Əliyev öz üzərində daim çalışır. Tabeliyində olan şəxsi heyətə qarşı olduqca tələbkar olan qrup komandiri əsl hərbçiyə xas olan əzmkarlıq, qorxmazlıq kimi keyfiyyətləri özündə birləşdirir.

Qrupda ciddi nizam-intizamın hökm sürdüyünü bildirən gizir A.Əliyev şəxsi heyətin təlim-tərbiyəsinə, günün nizam qaydalarına, daxili qayda-qanuna riayət olunmasına ciddi nəzarət etdiyini, keçirilən ictimai-siyasi məşğələlərdə hərbi qulluqçulara Vətənə məhəbbət, sədaqət hisslərini aşıladığını xüsusilə vurğulayır. Elə bunun nəticəsidir ki, qrupun şəxsi heyəti qarşıya çıxan bütün qəfil döyüş tapşırıqlarının öhdəsindən layiqincə gəlir.

**gizir L.Hüseynova**

## Allah rəhmət eləsin

25031 saylı hərbi hissənin şəxsi heyəti leytenant Məzahir Ağalarova **dayısının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

99713 saylı hərbi hissənin şəxsi heyəti baş gizir Zülfü Əkbərova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# NOVRUZ BAYRAMINIZ MÜBARƏK!

***Tarixi çox qədim olan Novruz bayramı hər il xalqımız tərəfindən böyük təntənə ilə qeyd olunur. Novruz bayramı təzə ili, baharın ilk gününü qarşılamaq deməkdir. Günəş dünyanın cənub yarımkürəsindən şimal yarımkürəsinə keçdiyi vaxt gecə ilə gündüz bərabərləşir. Bu vaxt qış qurtarır, yaz fəsli başlayır. Elə Novruz bayramı da bu gündə keçirilir. Deməli, Novruz bayramı, əslində, yazın, baharın ilk günü, təbiətin canlanması, torpağın oyanması bayramıdır.***



Əsrlərin sınağından çıxmış mənəvi dəyərlərimizi, adət-ənənələrimizi özündə yaşadan Novruz insanlar arasında birliyin və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam bir təməl yaratmışdır. Novruz bayramı sağlamlığın, firavanlığın başlanğıcıdır. Novruz başdan-başa ruh yüksəkliyi, əmək coşqunluğu, torpağa, insana məhəbbət bayramıdır. Elə bu məhəbbətlə bağlı yaranmış Novruz tapmaca, atalar sözü və adətlərində ulu babalarımızın müdrik dünyagörüşü, humanist baxışları, həlim, qayğıkeş təbiəti özünü göstərir.

Xalqın adətinə görə, bayram günü süfrə dolu olmalıdır. Qədim dövrlərdən Novruzda qız-gəlinlər təzə yaylıq, çəkmə geyinər, evlərdə hanalar qoyular, bayram xalçaları toxuyardılar.

Novruz bayramının Novruz süfrəsi, Novruz xonçası var. Bu süfrəni hazırlamağa axır çərşənbədən başlayırlar. Süfrəyə qoymaq üçün müxtəlif şirnilər bişirilir. Bunlara şəkərbura, paxlava, şəkərçörəyi və s. aiddir.

Bayram süfrəsində adlarını çəkdiyimiz şirniyyatlardan başqa noğul, nabat, püstə, badam, tut qurusu, kişmiş, fındıq, qoz, boyanmış yumurta, alma qurusu, iydə və s. çərəzlər olur. Bəzən axır çərşənbə həm də "yeddiləvin gecəsi" adlanır. Bu zaman süfrədə yeddi növ çərəz olmalıdır.

Çox vaxt yeddi sin süfrəsi də açılır. Yeddi sin süfrəsi sin "s" hərfi ilə başlayan sirkə (dad və zövqə işarədir), sarımsaq (sağlamlıq), səbzə (ümid), sumax (bərəkət), sikkə (varlıq), saat (uzun ömür) və su (aydınlıq) deməkdir. Süfrənin ortasında qırağı şamlarla bəzədilmiş səməni qoyulur.

Azərbaycanda lap qədimlərdən Novruz şənliklərində "Sayaçı", "Yuğlama", "Yel baba", "Cütçü şumu", "Kəvkəs", "Kosa-kosa", "Qaravəlli" və s. kimi milli xalq oyunları keçirilib. Bütün bunlarla birlikdə "Kəndirbaz", "Masqara" tamaşaları hazırlanıb.

Bu oyunların içərisində ən geniş yayılmışı "Kosa-kosa" oyunudur. Cavanlar bir yerə toplaşıb, zirək, hazırcavab bir oğlana dəri kürkünü tərsinə geydirib, başına uzun motal papaq taxıb mahnı oxuya-oxuya gəzirlər.

Bayram şənliyində keçirilən bu oyunlar özünəməxsusluğu ilə seçilir. Novruz bayramının çərşənbələrində həyətlərdə tonqal yandırılır. Tonqalın üstündən nəğmələr oxuyaraq hoppananda köhnə ilin azar-bezarı da həmin odda yandırılmış sayılır.

Novruz bayramında qulaq falına çıxmaq adəti də vardır. Qaranlıq düşəndə niyyət tutub qonşuların danışıqlarına qulaq asmağa gedərlər. İlk eşidilən söz tutulmuş niyyətə uyğun olaraq yozulur.

Odur ki, Novruz bayramı axşamında evlərdə könülaçan, ümid verən söhbətlər danışılmalıdır. Novruz bayramında ən çox yayılmış adətlərdən biri də qurşaq salmaqdır. Daha çox uşaqlar, cavanlar qaranlıq düşəndə evbəev gəzib bacadan, pəncərədən qurşaq sallayıb bayrampayı alırlar.

Onların qurşaqlarına qovurqa, boyanmış yumurta, alma, armud, ərik, gavalı qurusu, cürbəcür şirniyyatlar bağlayırlar.

Novruz bayramında kin-küdurət unudulmalıdır. Heç kəs gərək bir-biri ilə küsülü qalmamalıdır.

Bir sözlə, Novruz bayramı bolluq, xeyirxahlıq, gözəllik bayramıdır.

Bu əziz bayram ərəfəsində hər bir azərbaycanlıya, hər bir ölkə vətəndaşına, o cümlədən bütün hərbi qulluqçularımıza, onların ailələrinə səadət, firavanlıq, cansağlığı arzu edir, uğurlar diləyirik!

**leytenant N.Ağayeva**

# HƏRBİ XƏBƏRLƏR

### MİNA AKSİYASI ÜZRƏ SAHƏ SEMİNARI KEÇİRİLƏCƏK

Aprel ayının 4-dən 8-dək Azərbaycanda Mina Aksiyası üzrə Sahə Seminarı keçiriləcək.

Seminarda Belarus, Estoniya, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Latviya, Litva, Monqolustan, Rusiya, Tacikistan, Ukrayna və Özbəkistandan olan Mina Aksi-



yası, Sursatların Təmizlənməsi proqramları və eyni zamanda Beynəlxalq Qızıl Xaç Komitəsi, BMT İnkişaf Proqramı, ATƏT və BMT Mina Aksiyası Xidmətləri nümayəndələrinin iştirakı nəzərdə tutulur.

Dörd gün davam edəcək seminarın məqsədi iştirakçıları region ölkələrində bu sahədə qəbul olunmuş qanunvericilik və normalarla tanış etmək, ANAMA ilə mina aksiyasının əməliyyat, idarəetmə, mina təhlükəsinə dair maarifləndirmə, eyni zamanda zərərçəkənlərə yardım sahələrində təcrübə mübadiləsi aparmaq imkanı yaratmaqdır.

### "ADEX-2016" SƏRGİSİNƏ HAZIRLIQLAR DAVAM EDİR

Sentyabrın 27-30-da Bakıda keçiriləcək "ADEX-2016" ikinci Azərbaycan Beynəlxalq Müdafiə Sərgisinə hazırlıq işləri davam edir.

Artıq bir çox ölkələrdən olan şirkətlər sərgidə iştiraklarını təsdiq ediblər. Onlar arasında 2014-cü ildə keçirilmiş "ADEX-2014" sərgisində iştirak edənlərlə yanaşı, yeni şirkətlər də var.

Sərgidə Azərbaycanı təmsil edən təşkilatların sayında da artım müşahidə olunur. Belə ki, sərgidə ölkəmizi Müdafiə Sənayesi Nazirliyinin müəssisələri ilə yanaşı, ANAMA, "AzCan" şirkəti, Azmetko Kompleks Sazlama və Avtomatlaşdırma ASC, "Nabucco A&C" şirkətləri təmsil edəcək.

Türkiyə, Rusiya, İsrail, Belarus isə milli pavilyonlarla təmsil olunacaqlar.

### "Bulsae-3" YENİ LAZERLƏ İDARƏ OLUNAN RAKET KOMPLEKSİ

Şimali Koreya Xalq Demokratik Respublikasında yeni tankəleyhinə lazerlə idarə olunan raket kompleksi yaradılıb.



"Bulsae-3" adlandırılan kompleks haqda geniş məlumat verilməsə də, qeyd olunub ki, silah zirehlə örtülmüş tankları sıradan çıxarmaq imkanına malikdir. Rusiyalı mütəxəssislərin sözlərinə görə, "Bulsae-3" "Bulsae-2"nin bazasında yaradılıb. "Bulsae-2" isə Sovet hərbi sənayesinin məhsulu olan 9K111 "Faqot" tank əleyhinə raket kompleksinin bazasında formalaşdırılıb.

### YEDDİNCİ NƏSİL DÖYÜŞ TƏYYARƏLƏRİ YARADILIR

Rusiya yeddinci nəsil döyüş təyyarəsinin yaradılması üçün yeni layihəyə start verib. Bunu mətbuata açıqlamasında Rusiya Hərbi Kosmik Qüvvələrinin (HKQ) komandanı, general-polkovnik Viktor Bondarev deyib. O bildirib ki,



hazırda Rusiya HKQ "4++" nəsil döyüş təyyarələrinə məxsusdur.

Qeyd edək ki, hazırda dünyada Amerika Birləşmiş Ştatları 5-ci nəsil döyüş təyyarələrinə malikdir. Bunlar F-22 və F-35 döyüş təyyarələridir.

### ALMANLAR LAZER TOPUN SINAQLARINI KEÇİRİB

Almaniyanın "Rheinmetall Defence" şirkətinin gəmilər üçün istehsal etdiyi yüksək enerjili lazer topunun sınaqları keçirilib. Sınaqlar Almaniya Hərbi Dəniz Qüvvələrinə məxsus hərbi gəmidə, açıq dənizdə reallaşdırılıb. 10 kilovatlıq texnologiya məsafədən idarəolunan MLG 27 modulunun üzərində yerləşdirilib.

Lazer top pilotsuz uçuş aparatlarının, orta və kiçik həcmli gəmilərin, stasionar sahil hədəflərinin məhv edilməsi üzrə təyinatlandırılıb. Ümumilikdə, sınaqlar uğurla nəticələnib.

Hərbi xəbərlər "AzeriDefence" İnformasiya Agentliyinin məlumatları əsasında hazırlanıb

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: leytenant X.Tağıyeva

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63, 590-65-26

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

ƏSGƏR

№ 05 (471)
12 mart
2016-cı il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN-in Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# 12 MART DAXİLİ QOŞUNLARIN YARANMA GÜNÜDÜR



*Daxili Qoşunların, əsasən cəbhə bölgəsində olan hissəsinin xidmətini xüsusi qeyd etmək istəyirəm. Bu gün onlara hörmət və ehtiramımı bildirmək istəyirəm. Onlar orada böyük işlər görürlər. Azərbaycanın torpaqlarını qəhrəmancasına müdafiə edirlər. Belə döyüşçülərin işi hər birimizi sevindirir və böyük hörmət hissi doğurur.*

**Heydər Əliyev, Ümummilli Lider**

*Daxili İşlər Nazirliyinin Daxili Qoşunları Ümummilli Liderimiz Heydər Əliyevin xüsusi diqqət və qayğısı ilə formalaşmış, inkişaf etmiş, yüksək döyüş hazırlığı olan peşəkar bir quruma çevrilmişdir. Tariximizə nəzər salsaq, görərik ki, 24 illik salnaməmizin hər səhifəsində dahi rəhbər Heydər Əliyevin imzası var. Daxili Qoşunlar müstəqil Azərbaycanın həmyaşıdı kimi yaranma, formalaşma və inkişaf dövrünü məhz Heydər Əliyevlə birgə, onun tövsiyələrinə, göstərişlərinə istinad edərək keçmişdir. Ulu Öndərin Azərbaycanın Prezidenti olduğu illər ərzində cinayətkarlığa qarşı mübarizə, müxtəlif təxribatların qarşısının alınması, sabitliyin, əmin-amanlığın, asayişin qorunmasını və s. tənzimləyən «Daxili Qoşunların statusu haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul olundu. Şəxsi heyətin dövlətə, dövlətçiliyə sədaqətli xidmətini dəfələrlə yüksək qiymətləndirən Ulu Öndər hərbi qulluqçuların sosial təminatının yaxşılaşdırılması üçün sərəncamlar imzalamış, onları Vətənin ən yüksək mükafatları ilə təltif etmişdir.*

*Onun 9 mart 1995-ci il tarixdə imzaladığı Fərmana uyğun olaraq, hər il martın 12-də müstəqil Azərbaycanın Daxili Qoşunlarının ildönümü böyük təntənə ilə qeyd olunur.*

### AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ QOŞUNLARIN GÜNÜ ELAN OLUNMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Daxili Qoşunlarının Vətənin müdafiəsində xidmətlərini və öz vəzifələrini müvəffəqiyyətlə yerinə yetirmələrini qiymətləndirərək **qərara alıram:**

Erməni işğalçılarına qarşı döyüşə başladıqları gün - 12 mart Azərbaycan Respublikasının Daxili Qoşunlarının günü elan edilsin.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 9 mart 1995-ci il



*Son illər ərzində Daxili Qoşunlar Azərbaycanda sürətlə inkişaf etmişdir, çox yüksək səviyyədə peşəkarlıq var, vətənpərvərlik var. Bu, bizim üçün çox böyük nailiyyətdir.*

**İham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti,**
**Silahlı Qüvvələrin Ali Baş Komandanı**

## ŞƏXSİ HEYƏT ÖTƏN İLLƏRDƏ OLDUĞU KİMİ BUNDAN SONRA DA VƏTƏNƏ, XALQA MƏHƏBBƏT RUHUNDA DÖVLƏT VƏ DÖVLƏTÇİLİYİMİZƏ SƏDAQƏTLƏ XİDMƏT EDƏCƏK!

Son illər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İham Əliyevin rəhbərliyi altında ölkə həyatının hər bir sahəsində müsbət nəticələrin əldə edilməsi, demokratik proseslərin sürətlənməsi, bütövlükdə, Heydər Əliyev siyasi kursunun uğurlu inkişafı ilə əlamətdar olmuşdur.

Bu illər ərzində ordu quruculuğu, o cümlədən, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının xidməti-döyüş fəaliyyətinin təkmilləşdirilməsi sahəsində aparılan islahatlar da geniş xarakter almışdır. Prezident İlham Əliyevin diqqət və qayğısının nəticəsi olaraq qoşunların maddi-texniki bazası daha da möhkəmlənmiş, şəxsi heyətin kazarma-məişət şəraitinin müasir standartlara uyğunlaşdırılması, hərbi hissə və bölmələrin müasir silah və xüsusi texnika ilə təchizatı uğurla davam etdirilmişdir.

Ötən dövr ərzində Daxili Qoşunlar tərəfindən qanunvericiliklə müəyyən edilmiş vəzifələrin icrası istiqamətində bir sıra tədbirlər görülmüşdür. Şəxsi heyət ictimai asayişin qorunmasında və ictimai təhlükəsizliyin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirak etmiş, yüksək döyüş hazırlığı nümayiş etdirmişdir.

Qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsində əlindən gələni əsirgəməyən şəxsi heyətin fədakar xidməti hər zaman ölkə rəhbəri tərəfindən layiqincə qiymətləndirilmişdir. Elə bunun nəticəsidir ki, xidməti vəzifələrinin icrasına vicdanla, məsuliyyətlə yanaşan şəxsi heyətin döyüş hazırlığı ildən-ilə yüksəlməkdədir. Respublikamızda ötən il həyata keçirilmiş respublika və beynəlxalq əhəmiyyətli tədbirlərdə, eləcə də xüsusi tapşırıqların, əməliyyatların yerinə yetirilməsi zamanı qoşunların əldə etdiyi nailiyyətlər bunu deməyə əsas verir.

2015-ci ildə Azərbaycan Respublikasının Daxili İşlər Naziri tərəfindən qarşıya qoyulan əsas tapşırıqlardan olan ölkəmizdə «I Avropa Oyunları» və «Atıcılıq üzrə Dünya Kuboku» kimi beynəlxalq tədbirlərin keçirilməsi zamanı hüquq-mühafizə orqanları ilə birlikdə Daxili Qoşunlar müəyyən edilmiş vəzifələri peşəkarlıqla həyata keçirmişdir. Bakı, Mingəçevir və Qəbələ şəhərlərində həvalə edilmiş 14 yarış və 11 qeyri-yarış obyektlərində ictimai qaydanın və ictimai təhlükəsizliyin təmini üzrə xidmətin aparılması yüksək peşəkarlıqla icra olunmuşdur.

2015-ci ilin may ayında Bakı şəhəri, Binəqədi rayonunda yerləşən 16 mərtəbəli binada baş vermiş yanğınla əlaqədar 99713



saylı hərbi hissənin xüsusi təyinatlıları və 17077 saylı hərbi hissənin helikopter ekipajı fövqəladə halın fəsadlarının aradan qaldırılmasında fəal iştirak etmiş və axtarış tədbirləri zamanı köməksiz qalmış 6 nəfər vətəndaş aşkar olunaraq təxliyyə edilmişdir.

20 avqust 2015-ci il tarixdə 17072 və 16077 saylı hərbi hissələrin şəxsi heyəti daxili işlər orqanlarının əməkdaşları ilə birlikdə Mingəçevir şəhərində keçirilən razılaşdırılmamış kütləvi aksiya zamanı ictimai asayişin bərpa olunmasını tam təmin etmişdir.

2015-ci il ərzində xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsində respublikamızın bölgələrində dislokasiya olunmuş hərbi hissələrin fəaliyyəti də xüsusi qeyd olunmalıdır. Mingəçevir şəhərində, Füzuli, Siyəzən və Quba rayonlarında keçirilən razılaşdırılmamış kütləvi aksiyalar zamanı ictimai asayişin bərpa olunması polis orqanları ilə birgə Daxili Qoşunların hərbi hissələrinin şəxsi heyəti tərəfindən tam təmin edilmişdir.

Bundan başqa, Zaqatala, Balakən və Qax rayonlarında «Xaş-Xaş 2015», Şabran rayonunda «Sərhəd-Sipər» şərti adlı əməliyyatlarda narkotik tərkibli bitkilərin yabanı halda yayılmasının və kultivasiya edilməsinin qarşısının alınması üzrə irimiqyaslı kompleks əməliyyat-axtarış tədbirlərində polis orqanlarının əməkdaşları ilə birgə 17074, 16073 və 17077 saylı hərbi hissələrin şəxsi heyəti fəaliyyət göstərmiş, narkotik tərkibli bitkilər tapılaraq məhv edilmişdir. Həmçinin respublikanın müxtəlif şəhər və rayonlarında futbol oyunları, konsert və digər kütləvi tədbirlər zamanı xidmətə cəlb edilmiş şəxsi heyət üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmişdir.

Həmçinin ötən ilin dekabr ayının 1-də Nardaran qəsəbəsində Daxili Qoşunların və nizami polis hissələrinin məhdud sayda şəxsi heyəti cəlb edilməklə dövlətin konstitusiya quruluşunun əsasları əleyhinə yönəldilən hərəkətlərin qarşısının alınması, qanunçuluğun, sabitliyin və ictimai qaydanın bərpası məqsədilə hüquqi rejimin tətbiq edilməsi üçün Azərbaycan Respublikasının Daxili İşlər Naziri general-polkovnik Ramil Usubovun əmrinə əsasən xüsusi əməliyyat keçirilmişdir. Uğurla keçirilən əməliyyat nəticəsində Nardaran qəsəbəsində ictimai asayiş və təhlükəsizlik təmin edilmiş, dövlət və bələdiyyə orqanlarının normal işi ilə bağlı aidiyyəti qurumlara zəruri köməklik göstərilmişdir. Hal-hazırda Nardaran qəsəbəsində ictimai asayişin təmini Daxili Qoşunların hərbi qulluqçuları və polis orqanlarının əməkdaşları tərəfindən davam etdirilir.

Ötən illərdə olduğu kimi bu il də Daxili Qoşunlarda döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılması məqsədilə döyüş təliminin başlıca vəzifələri şəxsi heyətin praktiki bacarıqlarının artırılmasından, fiziki hazırlıq səviyyəsinin yüksəldilməsindən, təlim-tədris bazasının inkişaf etdirilməsindən ibarət olmuşdur. Bununla yanaşı, polis orqanları ilə birgə qarşılıqlı əlaqənin və fəaliyyətlərin təkmilləşdirilməsi də döyüş təlimi prosesində prioritet məsələlərdən olmuşdur. Buna misal olaraq, şəxsən Daxili İşlər Nazirinin rəhbərliyi ilə Daxili Qoşunların Təlim Mərkəzində polis orqanlarının əməkdaşları ilə birlikdə keçirilən xüsusi-taktiki təlimi qeyd etmək istərdim.

Bundan başqa, 2015-ci ildə müəyyən edilmiş vəzifələr və tapşırıqlar əsasında komanda-qərargah və xüsusi-taktiki təlimlər real əməliyyat şəraitinə uyğun keçirilmiş, şəxsi heyətə praktiki vərdişlər aşılanaraq müxtəlif şərtlərdə silah və xüsusi vasitələrdən, döyüş texnikasından effektiv istifadə edilməsinə xüsusi diqqət yetirilmişdir.

Qoşunların səhra təcrübəsinin artırılması məqsədilə, şəxsi heyət səhra təlimlərinə, atıcılıq məşqlərinə cəlb olunmuşdur. Müxtəlif ixtisaslı hərbi qulluqçularla metodiki təlim toplanışı və kurslar təşkil olunaraq keçirilmişdir. Xüsusi təyinatlı dəstələrin hərbi qulluqçuları ilə «Zoğalı beret» daşıma hüququnu qazanmaq üçün peşə sınaqları təşkil olunmuş, onların böyük əksəriyyəti bu sınaqları müvəffəqiyyətlə başa vurmuşdur.

Qoşunların peşəkar kadrlara olan ehtiyacının ödənilməsi məqsədilə, 2015-ci ildə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının təşkil etdiyi qəbul imtahanlarından keçərək Daxili Qoşunların Ali Hərbi Məktəbinə 124 nəfər daxil olmuş, hazırda orada 303 nəfər kursant təhsil alır. Bundan başqa, Ali Hərbi Məktəbdə müvafiq gizir kurslarında 103 nəfər gizir hazırlanmışdır.

Peşə hazırlığının artırılması üzrə tədbirlər çərçivəsində inkişaf etmiş dövlətlərin müvafiq qurumları ilə hərbi əməkdaşlıq sahəsində əldə edilmiş razılıqlar və bağlanmış müqavilələr əsasında ötən 2015-ci il ərzində 33 nəfər hərbi qulluqçu Türkiyə Respublikasında müxtəlif ixtisas kurslarına göndərilmiş, beynəlxalq əməkdaşlıq istiqamətində təcrübə mübadiləsi, oxşar qurumların qabaqcıl təcrübələrinin öyrənilməsi, müxtəlif mövzularda konfrans və seminarlarda iştirak etmək üçün Daxili Qoşunların 15 nəfər zabit hərbi qulluqçusu Türkiyə Respublikasına, Belçika Krallığına, Belarus Respublikasına ezam edilmişdir.

Xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi üçün döyüş vasitələrinin vəziyyəti daima nəzarətdə saxlanılaraq rabitə avadanlıqlarına, kimya və mühəndis əmlaklarına, silahlara, xüsusi vasitələrə, avtomobil və digər xüsusi texnikaya illik texniki baxışlar keçirilmişdir.

Hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, o cümlədən şəxsi heyətin Vətənə və hərbi anda sadiqlik, hərbi nizamnamələrin tələblərinə sözsüz əməl edilməsi ruhunda tərbiyə olunması, onlarda hərbi xidmətin çətinliklərinə dözüm keyfiyyətlərinin formalaşdırılması istiqamətində zəruri tədbirlər hazırlanıb həyata keçirilmişdir.

Qanunçuluğun, hərbi intizamın möhkəmləndirilməsi, hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarına uyğun qurulması üçün ardıcıl tədbirlər həyata keçirilmişdir.

Hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə 16075 saylı hərbi hissədə 60 mənzilli yataqxana binası, 25031 saylı hərbi hissədə yeni qərargah və əsgər kazarması, 12318 saylı hərbi hissədə 4 mərtəbəli əsgər kazarması, tibb məntəqəsi, hamam-camaşırxana kompleksi lazımi avadanlıqlarla təmin edilərək şəxsi heyətin istifadəsinə verilmişdir.

Növbəti illərdə də yüksək döyüş hazırlığının qorunub saxlanılması, komandir heyətinin idarəçilik fəaliyyətinin təkmilləşdirilməsi, xidməti-döyüş tapşırıqlarının icrası zamanı məsuliyyətin artırılması, qanunçuluğun və hərbi intizamın möhkəmləndirilməsi, şəxsi heyətin maddi-texniki təminatı üzrə tapşırıqlar müəyyən edilmişdir.

Əminliklə qeyd etmək istərdim ki, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti Azərbaycan Respublikasının Qanunlarından, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin fərman və sərəncamlarından irəli gələn vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək, anda sadiq qalaraq ölkədə sabitliyin və ictimai asayişin keşiyində mətinliklə dayanacaqdır.

**General-leytenant Şahin Məmmədov,**
**Daxili İşlər Nazirinin müavini-**
**Daxili Qoşunların Komandanı**

# ŞƏXSİ HEYƏTİN QAZANDIĞI NAİLİYYƏTLƏR DAXİLİ QOŞUNLARIN YARANMASININ 24-cü İLDÖNÜMÜNƏ TÖHFƏDİR

***Bu gün Daxili Qoşunların yaranmasının 24-cü ildönümü tamam olur. Ötən illər ərzində xalqımıza, dövlət və dövlətçiliyimizə sədaqətlə xidmət edən, ictimai asayişin və təhlükəsizliyin keşiyində ayıq-sayıq dayanan Daxili Qoşunların şəxsi heyəti uğurlar qazanaraq, nümunəvi xidməti ilə hər zaman seçilir. Bütün bunlar ölkə prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən yüksək qiymətləndirilir.***

***Daxili Qoşunların uğurları bu gün də davam etməkdədir. Şəxsi heyətin döyüş hazırlığının artırılması, hərbi intizamın möhkəmləndirilməsi, hüquqi-normativ və maddi-texniki bazanın genişləndirilməsi, zabit və gizirlərin peşə hazırlığının yüksəldilməsi, təlim mərkəzlərinin yaradılması, beynəlxalq standartlara uyğun tədris proqramlarının hazırlanması, hərbi hissələrdə hərbi qulluqçuların məişət və yaşayış şəraitinin yaxşılaşdırılması üçün həyata keçirilən əməli tədbirlərin nəticəsidir ki, qarşıya qoyulan bütün tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilir.***







Hərbi hissələr yeni müasir tipli silah, döyüş texnikası, xüsusi vasitələr, avadanlıq və nəqliyyat vasitələri ilə təmin olunur. Döyüş hazırlığının artırılmasında döyüş təliminə, nizam-intizamın möhkəmləndirilməsində isə tərbiyə işinə xüsusi diqqət ayrılır. Demək olar ki, bütün hərbi hissələrdə mənəvi-psixoloji durum yüksək səviyyədədir. Bu baxımdan 12565, 16077 və 17072 saylı hərbi hissələri xüsusilə qeyd etmək yerinə düşər. 2015-ci ilin xidməti-döyüş fəaliyyətinin yekunlarına, eləcə də keçirilən ümumi İnspeksiya yoxlamasının nəticələrinə əsasən bu hərbi hissələr digərlərini qabaqlayaraq ilk üç yeri tutublar.

12565 saylı hərbi hissədə xüsusi vasitələrin tətbiqi dəstəsi komandirinin müavini-qərargah rəisi mayor Sahil Əliyev bildirir ki, şəxsi heyət arasında tərbiyə işinin keyfiyyətli təşkili, hərbi vətənpərvərlik və azərbaycançılıq ideologiyasının təbliği, hərbi qulluqçularda ruh yüksəkliyinə səbəb olur ki, bu da öz növbəsində xidmətdə uğurların əldə edilməsinin əsas səbəbidir. Qeyd edib ki, il ərzində dəstənin şəxsi heyəti "Nümunəvi hərbi intizam və yüksək döyüş hazırlığı uğrunda!" şüarı altında xidmət edərək, keçirilən təlim və məşğələlərdə yüksək fəallıq nümayiş etdirib.

Hərbi hissədə bütün təlim və məşğələlər Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının "Daxili Qoşunlarda əsas tədbirlərin və döyüş təliminin təşkili haqqında" və "Tərbiyə işinin təşkilinə dair" Direktivlərinin, "Xüsusi vasitələrin tətbiqi bölmələrinin tədris proqramı"nın və hərbi hissə komandirinin təlim-tədrisin təşkilinə dair müvafiq əmrinin tələblərinə əsasən aparılır. Mayor S.Əliyev məşğələlər zamanı maddi-tədris bazasından geniş istifadə olunduğunu, hərbi qulluqçulara əzmkarlıq və dözümlülük kimi keyfiyyətlərin aşılandığını, ictimai-siyasi hazırlığın artırıldığını da diqqətə çatdırıb.

Xüsusilə atəş məşğələlərində şəxsi heyətə silahların taktiki-texniki xüsusiyyətləri, quruluşu, qorunub saxlanılması, onlardan düzgün istifadə və istismar qaydaları öyrədilir. Bu zaman silah və texnika ilə davranarkən təhlükəsizlik qaydalarına ciddi riayət olunur. Hər dəfə məşğələdən əvvəl və sonra silahların hazırlığı yoxlanılır, qəza və ya qırılma halları aşkarlanarsa, dərhal aradan qaldırılır.

Bundan əlavə, döyüş hazırlığını yüksək səviyyədə saxlamaq məqsədi ilə gecə təlimləri keçirilir.

Hərbi qulluqçuların müvəffəqiyyətlər qazanmasında xüsusi vasitələrin tətbiqi bölməsinin komandirləri kapitan Mahir Səfərovun və baş leytenant Vüqar Nağıyevin əməyi xüsusi olaraq qeyd olunur.

Bütün bunlar daim Daxili Qoşunların Komandanlığı tərəfindən diqqət mərkəzində saxlanılır. Ötən ildə dəstənin, ümumilikdə, 123 nəfər hərbi qulluqçusu Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının, eləcə də hərbi hissə komandirinin müvafiq əmrləri ilə mükafatlandırılıb.

Kapitan Şıxəmir Qaflanovun komandiri olduğu 16077 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsi də fərqlənənlər sırasındadır.

Kapitan Ş.Qaflanov 1986-cı il dekabrın 7-də Zaqatala rayonunda anadan olub. Orta məktəbi bitirdikdən sonra 2005-ci ildə Daxili Qoşunların 17072 saylı hərbi hissəsinin xüsusi təyinatlı bölməsində müddətli həqiqi hərbi xidmət keçib. 2007-2008-ci illərdə 67987 saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirib. 2008-2010-cu illərdə Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbində təhsil alıb və ilk zabit - "leytenant" hərbi rütbəsinə layiq görülüb. 2012-ci ildə Türkiyə Respublikasında Jandarma-Komando kursunu uğurla bitirib. 2012-2015-ci illərdə Daxili Qoşunların 17074 saylı hərbi hissəsində müxtəlif vəzifələrdə xidmət edib. 2015-ci ildən isə 16077 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin komandiridir.

Dəstə komandiri bildirir ki, dəstədə daxili qayda-qanuna, hərbi intizama ciddi riayət olunur, qoyulan tapşırıqların şəxsi heyət tərəfindən vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə hər zaman xüsusi diqqət göstərilir. Hərbi qulluqçuların işgüzar və mənəvi keyfiyyətlərinin təkmilləşdirilməsi, bilik və bacarıqlarının artırılması üçün müvafiq plana əsasən, gündəlik olaraq ictimai-siyasi, döyüş hazırlığı, taktiki hazırlıq, Daxili Qoşunların taktikası, fiziki hazırlıq və atəş məşğələləri keçirilir. İctimai-siyasi hazırlıq məşğələlərində hərbi qulluqçulara Ulu Öndərin dərin siyasi irsi, eləcə də tariximiz, mədəniyyətimiz, Daxili Qoşunların inkişafı, şərəfli döyüş yolu, əlamətdar günlər barədə ətraflı məlumat verilir.

Şəxsi heyətin asudə vaxtının səmərəli təşkil olunmasının vacib məsələlərdən olduğunu bildirən kapitan Ş.Qaflanov bunun üçün mütəmadi olaraq müxtəlif muzeylərə və tarixi abidələrə gəzintilərin təşkil edildiyini deyib.

17072 saylı hərbi hissənin əlahiddə patrul bölüyü 2015-ci ildə də yüksək xidməti-döyüş fəaliyyəti nümayiş etdirərək, hərbi hissələr arasında 3-cü yeri tutub.

Bölük komandiri kapitan Elvin Abdullayev hərbçi peşəsinin dünyada ən şərəfli peşələrdən biri olduğunu bildirir. Çünki Vətənin müdafiəsi, onun nüfuzunun və qüdrətinin möhkəmləndirilməsi üçün hər zaman səy göstərmək, nizam-intizamlı, vicdanlı, doğruçu və cəsarətli olmaq, hərbi borcu yerinə yetirərkən bütün qüvvəsini və lazım gəldikdə canını belə əsirgəməmək hər birimizin müqəddəs borcudur. Bunun üçün, əlbəttə ki, hər zaman öz üzərində çalışmaq, daim əzmli və iradəli olmaq gərəkdir. Bir komandir kimi o da tabeliyində olan hər bir hərbi qulluqçuda bu keyfiyyətlərin inkişaf etdirilməsi üçün səy göstərir. 2005-ci ildən Daxili Qoşunların sıralarında Vətənə sədaqətlə xidmət edən kapitan E.Abdullayev bölükdə daxili qayda-qanunun, nizam-intizamın qorunub saxlanılmasını, hərbi nizamnamələrin tələblərinə sözsüz əməl edilməsini tələb edir. Məhz bu tələbkarlığın nəticəsidir ki, bu gün patrul bölüyü hərbi hissənin nümunəvi bölüklərindən biridir və şəxsi heyət birinciliyi hər zaman saxlamaq üçün bundan sonra da əzmlə xidmət göstərəcəkdir.

Fəxrlə qeyd etmək olar ki, hərbi hissələrin qazandığı nailiyyətlər Daxili Qoşunların yaranmasının 24-cü ildönümünə töhfədir.

**leytenant X.Tağıyeva**

# GÜCLÜ ƏSGƏR OLMAQ HƏDƏFİ

## *Daxili Qoşunlarda güclü əsgər anlayışı fiziki məharət, döyüşçü peşəkarlığı, iradəli xarakter, əqidə dönməzliyi kimi bünövrələrin vəhdətini təcəssüm etdirir*

***Döyüşdə zəfərin qazanılmasının əsas ağırlığı əsgərlərin çiyinlərinə düşür. Hər bir əsgər bir sipərdir. Bu sipərlərin cəmi bir ordu gücü yaradır. Güclü ordu güclü əsgərdən başlayır. Əgər güclü əsgər olmaq hədəfi yoxdursa, şəxsi heyətlə aparılan təlim-tərbiyə işi öz əsas oriyentirini itirmiş olar.***



Ümumiyyətlə, hərbi xidmət, xidməti-döyüş fəaliyyəti güc faktoruna söykənir. Ona görə də güclü olmaq, güc daşıyıcısı kimi formalaşmaq, gücdən düzgün, yetərli qədər və labüd şəraitdə istifadə etmək mühüm amillərdir.

Güclü əsgər anlayışı fiziki məharət, döyüşçü peşəkarlığı, iradəli xarakter, əqidə dönməzliyi kimi bünövrələrin vəhdətini təcəssüm etdirir. Hərb tarixi göstərir ki, güclü əsgər tələbatı ödənmədikdə, bu ehtiyac təmin edilmədikdə istənilən bir dövlət və xalq üçün ölüm-qalım dilemması ilə üz-üzə qalmaq məcburiyyəti yaşana bilər.

Ölkəmizin müharibə təcrübəsi də bir çox ibrət dərslərini öyrənməyi diqtə edir. Bəli, döyüş meydanlarında güclü, cəsur və fədakar əsgərlərimiz az olmayıb. Onların hünəri, mərdlik örnəyi bugünkü əsgərlərə dolğun çatdırılmalıdır. Bu oğullar düşmənin gözünü qorxudub, iradəsini ram edib, onu vahiməyə salıb, geri çəkilməsinə müvəffəq olub və nəhayət, məhv edilməsində şücaət nümunələri göstəriblər. Ancaq etiraf etməliyik ki, döyüşmək üçün gücü yetməyən, iradəsi zəif, qorxaqlıq göstərən əsgərlərimiz də olub.

Müharibənin sərt üzü var və kimin kim olduğunu, istər-istəməz, ortaya çıxarır. Əslində, elə güclü əsgər olmaq hədəfini həyati zərurətə çevirən faktor müharibə sınağıdır. Güclü olmayan əsgər müharibə sınağından uğurla keçə bilməz.

Hər bir əsgər "mən son nəfəsimədək Vətənimə sadiq olacağam" amalı ilə xidmət etməlidir. Əsgər bilməlidir ki, dövləti, xalqı onun dayağıdır və o da mənsub olduğu dövlətin, xalqın şərəfini uca tutmalıdır.

Qarabağ müharibəsində öz komandirini düşmən gülləsindən qorumaq üçün sinəsini qabağa verən əsgərlərimiz olub. Onların bu misilsiz igidliyi onu göstərir ki, vətən əsgərinin vətənpərvərliyi, hərbi andına sədaqəti, onu tərbiyə etmiş və ona təlim vermiş komandirə ehtiramı ağır sınaq anında həlledici rol oynayıb.

Göründüyü kimi, güclü əsgər yetişdirmək hədəfini reallığa çevirən vətənpərvər əqidəli komandirlərdir. Güclü əsgər hazırlaya bilən komandir döyüş meydanında məğlubiyyət acısını yaşamayacaq.

Əsgərin güclü olmasına ruh verən əsas amillərdən biri də onun ailəsidir. Əsgər ailəsi sarıdan arxayın olmalıdır, valideynlərinin, bacı-qardaşlarının mənəvi dəstəyini hiss etməlidir. Psixoloji qanunauyğunluqlara görə, hətta sevdiyi qızın vəfası, onun kişilik məktəbi keçməsinə rəğbət göstərməsi, həsrətlə yolunu gözləməsini ifadə etməsi də əsgərə mənəvi güc verir.

Güclü əsgər olmaq hədəfinə aparan yollardan biri də əsgəri qardaşlıqdan keçir. Əsgəri qardaşlıq hərbi xidmət şəraitində formalaşan və möhkəmlənən mənəvi bağlılıqdır, öz silahdaşına güvənc yaradan döyüşçü keyfiyyətidir. Əsgər anlamalıdır ki, döyüş vərdiş və üsullarına mükəmməl yiyələnmək üçün fərdi əzmkarlıqla yanaşı, onun əsgər yoldaşlarının təlim dəstəyi, birgə çalışqanlığı, taktiki fəndləri birlikdə mənimsəmə bacarığı da vacibdir. Səninlə eyni hərbi forma geyinən, təlimdə birgə tər tökən, sırada hərbi marş oxuyub addımlayan, xidməti tapşırıqların yerinə yetirilməsində qarşılıqlı fəaliyyət göstərən əsgər yoldaşına dəyər vermək lazımdır.

Əsgəri güclü edən həm də onun silahıdır, istifadə etdiyi digər döyüş vasitələridir. Ona görə də əsgərin silahın, texnikanın sirlərinə mükəmməl yiyələnməsi ilə yanaşı, "silah yalnız düşmənə qarşı tuşlana bilər" əqidəsinin aşılanması da çox vacibdir. Əldə silahın olması cəsurluq üçün kifayət etmir, düşmənin də əlində silah var. Önəmli olan cəsarət, çeviklik, gücü toparlamaq, hədəfə inadla can atmaq, dözümlü olmaq, təlimdə məşq edilənləri özünü itirmədən tətbiq etmək, döyüş ruhunu qoruyub saxlamaqdır.

Son günlər düşmənlə təmas xəttində ön mövqelərə basqını dəf edərkən igid əsgərlərimiz şəhid oldu. Yaranmış vəziyyət bir daha göstərdi ki, işğal olunmuş torpaqların azad olunması Vətən əsgərinin gücünə və şücaətinə bağlıdır.

Hansı qoşun növündə hərbi xidmət keçməsindən asılı olmayaraq hər bir əsgər öz döyüş hazırlığını qoruyub saxlamalı və təkmilləşdirməlidir. Güclü əsgərin əsas cəhəti müdafiədə möhkəm dayanması və hücumda məğlubedilməz olmasıdır. O, öz gücünə inanmalı, amalındakı ədalətə güvənməli, xalqının xeyir-duasından ruhlanmalıdır.

Hərbi strateqlərdən biri deyib ki, güclü olmayan əsgər döyüşçü deyil, o, özü bir hədəfdir. Bu həqiqəti heç vaxt unutmamalıyıq. Biz bu gün daha böyük inam hissi ilə deyə bilərik ki, güclüyük, çünki güclü əsgərlərimiz var.

**Yalçın Abbasov,**
**Daxili Qoşunların Veteranlar Şurasının katibi**



# DİN-in DAXİLİ QOŞUNLARININ MİLLİ QƏHRƏMANLARI



**Polkovnik Məmmədov Sahib Ələmdar oğlu**
1964-cü ildə anadan olub. Zəngilan rayonu uğrunda gedən döyüşlərdə iştirak edib, ağır yaralanıb, sağdır. **Daxili işlər orqanlarından ehtiyata buraxılıb.** Azərbaycan Respublikası Prezidentinin 08 oktyabr 1992-ci il tarixli fərmanı ilə ona "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.



**Kapitan Arazov Ənvər Talış oğlu**
1953-cü ildə anadan olub. 31.10.1992-ci ildə Ağdərə rayonu uğrunda gedən döyüşdə şəhid olub. Gəncə şəhərində "Şəhidlər Xiyabanı"nda dəfn edilib.
Azərbaycan Respublikası Prezidentinin 06 noyabr 1992-ci il tarixli fərmanı ilə ona "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı **(ölümündən sonra)** verilmişdir.



**Baş leytenant Yəhyayev Elşad Məmmədhənifə oğlu**
1966-cı ildə anadan olub. 19.06.1992-ci ildə Ağdərə rayonu uğrunda gedən döyüşlərdə şəhid olub. Bakı şəhərində "Şəhidlər Xiyabanı"nda dəfn edilib.
Azərbaycan Respublikası Prezidentinin 08 oktyabr 1992-ci il tarixli fərmanı ilə ona "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı **(ölümündən sonra)** verilmişdir.



**Baş leytenant Nəcəfov Fəxrəddin Vəliyəddin oğlu**
1967-ci ildə anadan olub. 04.09.1992-ci ildə Ağdərə rayonu uğrunda gedən döyüşdə həlak olub. Bakı şəhərində "Şəhidlər Xiyabanı"nda dəfn edilib.
Azərbaycan Respublikası Prezidentinin 06 noyabr 1992-ci il tarixli fərmanı ilə ona "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı **(ölümündən sonra)** verilmişdir.



**Baş leytenant Quliyev Mətləb Kamran oğlu**
1959-cu ildə anadan olub. 31.08.1992-ci ildə Ağdərə rayonu uğrunda gedən döyüşdə şəhid olub. Sumqayıt şəhərində "Şəhidlər Xiyabanı"nda dəfn edilib.
Azərbaycan Respublikası Prezidentinin 06 noyabr 1992-ci il tarixli fərmanı ilə ona "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı **(ölümündən sonra)** verilmişdir.



**Baş leytenant Abdullayev Rövşən Abdulhüseyn oğlu**
1969-ci ildə anadan olub. 13.09.1992-ci ildə Zəngilan rayonu uğrunda gedən döyüşdə şəhid olub. Lənkəran şəhərində "Şəhidlər Xiyabanı"nda dəfn edilib.
Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1995-ci il tarixli fərmanı ilə ona "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı **(ölümündən sonra)** verilmişdir.



**Çavuş Makayev İqor Vladimiroviç**
1971-ci ildə anadan olub. 05.08.1992-ci ildə Ağdərə rayonu uğrunda gedən döyüşdə şəhid olub. Gəncə şəhərində "Şəhidlər Xiyabanı"nda dəfn edilib.
Azərbaycan Respublikası Prezidentinin 06 noyabr 1992-ci il tarixli fərmanı ilə ona "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı **(ölümündən sonra)** verilmişdir.



**Sıravi Məhərrəmov Səxavət Ələmdar oğlu**
1973-cü ildə anadan olub. 18.08.1992-ci ildə Ağdərə rayonu uğrunda gedən döyüşdə şəhid olub. Bakı şəhərində "Şəhidlər Xiyabanı"nda dəfn edilib.
Azərbaycan Respublikası Prezidentinin 06 noyabr 1992-ci il tarixli fərmanı ilə ona "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı **(ölümündən sonra)** verilmişdir.



**Sıravi Muradov Ruslan Həmid oğlu**
1973-cü ildə anadan olub. 22.08.1992-ci ildə Ağdam rayonu uğrunda gedən döyüşdə şəhid olub. Mingəçevir şəhərində "Şəhidlər Xiyabanı"nda dəfn edilib.
Azərbaycan Respublikası Prezidentinin 06 noyabr 1992-ci il tarixli fərmanı ilə ona "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı **(ölümündən sonra)** verilmişdir.

# İLK ŞƏHİDLƏRİMİZ

## Baş leytenant Ruber Səfərəliyev



1992-ci ilin iyun ayında Ağdam-Əsgəran bölgəsində gedən ağır döyüşlərdən birində şəhid olub.

Baş leytenant R.Səfərəliyev Əsgəran istiqamətindəki Naxçevanik, Aranzəminli kəndlərinin müdafiə olunmasında öz hərbi səriştəsindən bacarıqla istifadə edib. Naxçevanik kəndinə hücuma keçən ermənilər baş leytenant R.Səfərəliyevin tabeliyindəki döyüşçülərin güclü müqavimətinə rast gəlmişdilər.

Gecə vaxtı Pirtəpə adlanan yüksəkliyə hücum olmalıydı. Yüksəkliyə yaxınlaşdıqda əsgərlər bir-birindən ayrı düşməyə başladılar. Çünki göz-gözü görmürdü. Yüksəklik sıx meşələrlə örtülü idi. Çətinliklə də olsa, gecə saat 4-ün yarısı yüksəkliyə qalxırlar. Erməni mövqeləri ilə bizim aramızda 70-80 metr məsafə olardı. Düşmənin səsi asanlıqla eşidilirdi. Birdən şəxsi heyət baş leytenant R.Səfərəliyevin "irəli, türk oğulları" əmrini eşidir. Təxminən bir saatlıq qızğın atışmadan sonra o, irəliyə atılarkən düşmən gülləsinə tuş gəlir. Bu gün də onun döyüşçü yoldaşları cəsur, dəyanətli, ürəyi Vətən sevgisi ilə döyünən bir komandirin döyüş uğurlarını, düşmən üzərinə mərdliklə irəliləməsini unuda bilmir. O, əsgərlərinin xatirələrində əsl qəhrəman kimi yaşayacaqdır.

## Leytenant Rafiq İsmayılov



1962-ci ildə anadan olub. 1985-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu (hazırda Dövlət Bədən Tərbiyəsi Akademiyası) bitirib. 1986-cı ildə hərbi xidmətə çağırılıb. Sonra taleyini hərbçi peşəsinə bağlayıb. Daxili Qoşunların idman bölüyündə xidmət edib. O, peşəkar idmançı kimi idmanın silahsız özünümüdafiə və cü-do növlərində yüksək nəticələr əldə edib, qələbələr qazanıb. Beynəlxalq dərəcəli idman ustası idi.

Leytenant R.İsmayılov Xocalı faciəsindən sarsılaraq, könüllü olaraq ön cəbhəyə gedib. 1992-ci ilin mart ayında Ağdam bölgəsində Qaraqaya istiqamətində ön mövqelərimizdə döyüş zamanı düşmən snayperinə tuş gəlib. Bakıda Şəhidlər Xiyabanında dəfn olunub.

## Çavuş Hatəmxan Babayev



1972-ci ildə Zəngilan rayonunun Keçikli kəndində dünyaya göz açıb. Hərbi xidmətə qədər idmanın klassik güləş növü ilə məşğul olub. Qaynaqçı ixtisasına yiyələnib. O, 1990-cı ildə hərbi xidmətə çağırılıb. Torpaqlarımızın erməni işğalçılarından azad olunması uğrunda gedən döyüşlərdə öz cəsarəti, qorxmazlığı ilə fərqlənmişdir.

1992-ci ilin mart ayından başlayan döyüş yolu Ağdam bölgəsindən keçib. O, kəşfiyyatçı kimi qarşıya qoyulan döyüş tapşırıqlarını layiqincə yerinə yetirib. Onun son döyüşü 1992-ci il mart ayının 31-də olub. Papravənd kəndinin (Ağdam) müdafiəsində şəhid olub.

# DÖYÜŞ TƏCRÜBƏLƏRİNİ ƏSGƏRLƏRİMİZLƏ BÖLÜŞƏN VETERANLARIMIZ

***Biz veteranlar həmişə vətənimizə, dövlətçiliyimizə sədaqəti, bu yolda fədakar xidməti həyatımızın ən ali amalı kimi qəbul etmişik. Bu gün Azərbaycan dövlətinin güclənməsi, siyasi nüfuzunun artması, iqtisadi və hərbi potensialının möhkəmlənməsi hər birimizdə haqlı qürur hissi doğurur.***

Ölkəmizin müstəqilliyinin, ərazi bütövlüyünün, dövlətçiliyinin qorunmasında özünəməxsus xidmətləri olan Daxili Qoşunlar yaradılmasının növbəti ildönümünü qeyd edir. Unikal bir faktdır ki, ölkənin digər qoşun növlərindən fərqli olaraq, Daxili Qoşunların günü müəyyən edilərkən bir hərbi struktur kimi formalaşdığı təqvim günü deyil, şəxsi heyətin erməni işğalçılarına qarşı döyüşə başladığı tarix əsas götürülüb. Bu məqam Daxili Qoşunların tarixinin şərəfli səhifəsidir. Bir məsələni də xüsusi vurğulamağa dəyər ki, ölkəmizdə hərbi qurumlar arasında döyüş bayrağı ilk dəfə məhz Daxili Qoşunların hərbi hissələrinə təqdim olunub. Bütün bunlar dövlət rəhbərliyinin yüksək etimadının təzahürü kimi qiymətləndirilməlidir.

Daxili Qoşunların ötən dövrdə keçdiyi yol əzmkarlıq, qətiyyət, mübarizlik və cəsurluq nümunəsidir, zəngin xidmət təcrübəsidir, davamlı inkişafın göstəricisidir. İldən-ilə şəxsi heyətin peşəkarlığı yüksəlir, hərbi hissələrin maddi-texniki təchizatı müasir tələblərə cavab verir. Daxili Qoşunların keçdiyi yola dərindən bələd olan veteranlarımız bütün bu irəliləyişləri görür, əvvəlki dövrlə müqayisə edir və nəhayət, ictimai fəaliyyət çərçivəsində təbliğ etməyi də unutmurlar.

Bu gün Daxili Qoşunların veteranlarını birləşdirən ictimai təşkilat olaraq Daxili Qoşunların Veteranlar Şurası mövcuddur. Şura üzvləri şəxsi heyətin vətənpərvərlik tərbiyəsi işində öz zəhmətini əsirgəmir. Bu bizim fəaliyyətimizin əsas istiqamətidir. Xüsusilə, gənc əsgərlərlə Daxili Qoşunların döyüş yolu, xidməti fəaliyyətdə əldə olunmuş nailiyyətlər, əsgəri qardaşlıq, hərbi kollektivdə komandirlərin rolu, azərbaycançılıq, vətənsevərlik mövzularında söhbətlər onların əqidəcə düzgün formalaşmasına zəmin yaradır. Veteranlarımız zabit, gizir və çavuş heyəti ilə də ünsiyyətdə olur, onlarla öz təcrübəsini bölüşür, dəyərli nəsihətlər verirlər.



*Veteranlar Şurası Daxili Qoşunların bütün veteranları adından Daxili Qoşunların Komandanlığı və şəxsi heyətini 12 mart – Daxili Qoşunlar günü münasibətilə ürəkdən təbrik edir, çətin və şərəfli xidmətinizdə uğurlar arzulayır*

Hərbi andiçmə mərasimlərində, hərbi hissələrin yaranma günləri münasibətilə keçirilən tədbirlərdə veteranlar yaxından iştirak edirlər. Veteranlar Şurasının üzvlərinin hüzn günləri və dövlət bayramlarında şəxsi heyət qarşısında çıxışları da təşkil olunur.

Şura Daxili Qoşunların xidməti-döyüş fəaliyyətinin cəmiyyətdə təbliğ olunması, Daxili Qoşunlar haqda müsbət rəyin formalaşması, gənclərin Daxili Qoşunların sıralarında hərbi xidmətə həvəsləndirilməsi yönündə məqsədyönlü iş aparır. Bu baxımdan televiziya, radio və mətbuatın imkanlarından istifadə olunur.

Veteranlar Şurası veteranların problemlərinin öyrənilməsi və həllinə köməklik göstərilməsi, onların hüquqlarının müdafiəsi üçün səlahiyyətləri çərçivəsində təşkilati tədbirləri yerinə yetirir.

Veteranlarımızın hüzn mərasimlərində iştirak edirik, hospital və xəstəxanalarda müalicə olunan veteranlarımıza baş çəkirik. Veteranların istirahətinin səmərəli təşkili üçün də lazımi addımlar atılır. Belə ki, Veteranlar Şurasının bununla bağlı müraciəti nəzərə alınaraq, Daxili Qoşunların Komandanlığının göstərişinə əsasən, Daxili Qoşunların Nabranda yerləşən istirahət mərkəzində veteranların ailə üzvləri ilə birlikdə rahat dincəlməsi üçün lazımi şərait yaradılıb.

Veteranlar Şurası veteranların maarifləndirilməsi və ictimai fəaliyyətə cəlb olunmasını da təşkil edərək, onların həmrəyliyinin möhkəmləndirilməsinə öz töhfəsini verir.

Biz öz fəaliyyətimizdə Daxili İşlər Nazirliyi rəhbərliyinin və Daxili Qoşunların Komandanlığının daim dəstəyini hiss edirik. Veteranlar Şurasının təşəbbüslərinə diqqətlə yanaşılır. Bir sıra veteranlarımız müxtəlif təltiflərlə mükafatlandırılıblar. Veteranlara göstərilən qayğıya, xoş münasibətə görə Daxili İşlər Nazirliyi rəhbərliyinə və Daxili Qoşunların Komandanlığına dərin minnətdarlığımızı bildiririk.

Biz veteranlar Daxili Qoşunların sıralarında olmasaq da, üzvü olduğumuz ictimai təşkilat Daxili Qoşunların tərkib hissəsidir. Ona görə də tam əminliklə demək olar ki, veteranlarımız Daxili Qoşunların bugünkü həyatında iştirak edirlər. Onlar dövlətimizin hər bir çağırışına hazırdırlar.

İnanırıq ki, Ənvər Arazov, Mətləb Quliyev, Elşad Yəhyayev, Fəxrəddin Nəcəfov, Rövşən Abdullayev, Ruslan Muradov, İqor Makeyev, Səxavət Məhərrəmov, Hatəmxan Babayev, Ruber Səfərəliyev və Elpərəst Hüseynov kimi mərd oğulların xidmət etdiyi və şəhidlik zirvəsinə ucaldığı Daxili Qoşunlar şərəfli döyüş ənənələrini yaşadaraq, işğal olunmuş torpaqlarımızın azad olunmasında öz sözünü deyəcəkdir.

Veteranlar Şurası Daxili Qoşunların bütün veteranları adından Daxili Qoşunların Komandanlığı və şəxsi heyətini 12 mart – Daxili Qoşunlar günü münasibətilə ürəkdən təbrik edir, çətin və şərəfli xidmətinizdə uğurlar arzulayır.

**Murad Mürsəlov, Daxili Qoşunların Veteranlar Şurasının sədri**